think orange.
think connected.

OBO BETTERMANN

**Həyatda bir çox nailiyyət əldə etdiyinizi düşündüyünüz an, növbəti addımı atmağın vaxtı çatmışdır.**

**OBO-ya xoş gəldiniz**

# Biz kökləri gələcəyə calayırıq



Firmanın qurucusu Franz Bettermann

**Həyatda bir çox nailiyyət əldə etdiyinizi düşündüyünüz an, növbəti addımı atmağın vaxtı çatmışdır. Bu təfəkkür  bizim düşüncəmizin və fəaliyyətimizn təməl ünsürüdür. Və beləcə təxminən yüz ildir ki, fəaliyyətimizi davam etdiririk. Bu ənənəyə dayanaraq, gələcəkdə də çətin işlərin öhdəsindən gələ biləcəyimizə inanırıq. Bizim firmamızın nailiyyəti naminə. Sizin nailiyyətiniz naminə. Ənənələri və intuisiyaları birləşdirmək. Bu, "think orange"dir**

**think orange.**
**think connected.**



Thomas Bettermann · Ulrich L. Bettermann · Andreas Bettermann

1911-ci il. Fövqəladə nailiyyətlər tarixinin başlanğıcı: Franz Bettermann öz müəssisəsini qurmaq üçün ilk təməl daşını qoyur. Bu vaxtdan etibarən işçilərimiz və müştərilərimizlə bərabər uzun bir yol keçmişik. OBO, metal emalından yola çıxaraq gələcəyə doğru inkişaf istiqaməti götürmüş və binaların tikintisində qurğu-montaj texnalogiyasının əsas təminatçısına çevrilmişdir. 50 ölkədə otuzdan çox qardaş müəssisə və beynəlxalq istehsalçı müəssisələrlə 30 000 müxtəlif məmulatlarla təmsil olunuruq.

Bizim 2000-dən artıq işçimiz OBO məhsullarının bütün dünyada “axına hakim olması, məlumatları ötürməsi və enerjiyə nəzarət etməsi” üçün əllərindən gələni əsirgəmir. İlkin başlanğıc dövüründən tutmuş indiyə qədər müəssisənin idarəçiliyi Bettermann ailəsinin əlindədir. Üçüncü və dördüncü nəsillər, Dahl və Ackermann ticarət markalarını satın alaraq OBO nailiyyətlərini davam etdirməkdədirlər.
Addım-addım.

# Biz ideyanı nailiyyətlə bütövləşdiririk




Dəqiqlik bizim ehtirasımızdır. OBO-nun keyfiyyət politikası bizim bazar iqtisadiyyətində mövqeyimizin möhkəmlənməsinin və genişlənməsinin təməli və inkişafımızın zəminidir. Metal, plastik, eləcə də elektron cihazları üçün elastiklik və məhsuldarlıq – bu cür idarəetməyə əsaslanaraq, hər gün əldə edilən yeni-yeni qavramları əllə toxuna biləcəyimiz həll etmə üsullarına çeviririk. Məhsullarımızı özümüz hazırlayır, özümüz də təkmilləşdiririk. Bunun nəticəsidir ki, keyfiyyət tələblərinə cavab verə biləcək ideyadan tutmuş nailiyyətə qədər hər şeyə zəmanət veririk. Eyni zamanda, müştərilərimizin təcrübələrinin bir başa istehsalın inkişafına yönləndirilməsini təmin edirik.



Bilik daha da gücləndirir. Biliyin faydalı şəkildə tətbiqi daha da gücləndirir. OBO, bizim tərəfimizdən düşünülmüş və istehsal edilmiş bir ticarət markasıdır. Bu, milyonlarca mütəxəssisə qazanc verə biləcək bir məhsuldur.  Peşəkarlar tərəfindən peşəkarlara uyğun yaradılmışdır: praktik, hər istifadəçinin dostu, möhkəm və tezliklə əldə edilən.
Bizim tələbkar proqramlarımız öz labaratoriyalarımızda texnikanın inkişafına uğun olaraq təkmilləşdirilir.

Bizim keyfiyyətimizə təminat verən və sertifikatlaşdırılmış keyfiyyəti tənzimləyən sistemimiz, dəfələrcə nəzarətdən keçmiş və sertifikatlaşdırılmış etibarlı və mükəmməl keyfiyyəti əldə etməyə zəmin yaradır. Çevik və əlverişli mal tədarükü sistemimiz müştərilərimizə təminatlı təchizat güvəni verir. Bütün bunların başında yalnız bir məqsəd var: peşəkarların işini gün-gündən daha da asanlaşdırmaq.

# Biz öz məhsullarımızla birləşdiririk



**VBS Calaşdırıcı və pərçimləyici avadanlıqlarımız:**
Kabel şaxələrinin qutuları, oyuq və daş divar qurğuları, sıxac qurğuları, kabelləri şaxələrə ayıran qurğular, plastik kabel və boru bərkidici tutqaçlar, metaldan olan kabelləri bərkitmək üçün qurğular, xüsusi kabel və boru bərkidici tutqaçlar, çəngəl, sıxac, qulp və dayaq-dəstək qurğuları, keçid qulpları, vint və şuruplar, döyəcləyici qurğular

**TBS Keçici yüksək cərəyana və fırtınaya qarşı qoruma qurğuları:** Yüksək cərəyanı mühafizə sistemi, yüksək gərginliyə davam gətirən qurğular, tufan və qasırğaya qarşı mühafizə sistemi, elektrik cərəyanını yerlə calaşdırma qurğuları

**KTS Kabel daşıyıcı qurğuları:** Quraşdırma qurğuları, kabelin çəkilməsi üçün oyuq və yaxud novça qurğuları, oyuqlu qutu avadanlıqları, kabel pilləkən qurğuları, möhkəmləndirilmiş oyuq və pilləkən qurğuları, şaquli pilləkən qurğuları, işıq üçün lazım olan oyuq qurğuları, modullaşdırma sistemləri, paslanmayan polad avadanlıqlar, cərəyanın fəaliyyətini təmin edən və MLAR qurğuları

**BSS Yanğından mühafizə sistemi:**
Kabelin çıxış yolu qurğuları, yanğından mühafizə etmək üçün kanal qurğuları, cərəyanın fəaliyyətini təmin edəcək avadanlıqlar, MLAR – qurğuları

**LFS Qutuların yerləşdirilməsi üçün gərəkən avadanlıqlar:**
Plastik elektrik şəbəkəsi avadanlıqları, metaldan olan elektrik şəbəkəsi ləvazimatları, döşəmə kənarları üçün şəbəkə qurğuları, elektrik xətləri üçün avadanlıqlar, təchizat şəbəkəsi avadanlıqları, boru dirəkləri üçün qurğular, təchizat şəbəkəsi avadanlıqları və boru-dirəklər üçün ləvazimatylar

**EGS Elektrik açarları, ştepsellər və idarə etmə avadanlıqları:**
Əsas ünsürlər, elektrik təchizatları, OBO B.U.S. qurğuları, cərəyan tənzimləyici qurğular, radio qurğular, Standart ardıcıl birləşmə, Dialoq ardıcıl birləşmə, Aura ardıcıl birləşmə, Modul ardıcıl birləşmə, Compacta ardıcıl birləşmə, xəstəxana təchizatları, yer üstü təchizatlar, rütubətli otaq üçün gərəkən avadanlıqlar, alüminium tökümlü ardıcıl birləşmə, rabitə təchizatı üçün avadanlıqlar, sənaye və xüsusi ştepsel təchizatı üçün avadanlıqlar

**UFS Döşəmə üçün quraşdırıcı qurğular:**
Beton içi üçün qurğular, betonla örtülmüş qurğular, beton üstü üçün qurğular, ikiqat və yaxud oyuqlu döşəmə üçün qurğular, təchizatı quraşdırmaq üçün gərəkən ləvazimatlar

**Çox sayda quraşdırıcını həll etmək üçün 30 000 ədət məhsul. Mismar bərkidicilərdən tutmuş, bütöv fəaliyyəti təmin edən OBO B.U.S. avadanlıqlarına qədər 30 000 ədət məmulatdan ibarət olan növlərlə. Bu avadanlığın hər birisinin keyfiyyətinə zəmanət veririk və heç bir problem olmdan əldə etmək mümkündür. Bütün bu məhsullarda bizim qabiliyyətimiz və müştərilərimizə qarşı məsuliyyətimiz gizlənməkdədir. Bizim təkmilləşdirilmiş proqramımız hər gün inkişaf edir və bu inkişafı durmadan müasirləşdiririk. Biz əldə etdiyimiz yenilikləri daha da genişləndirərək, əməkdaşlarımıza gələcəkdə hər cür tələbatı ödəyə biləcək ticarət sahəsi açmağı arzulayırıq.**




**Axına hakim olmaq.
Məlumatları ötürmək.
Enerjiyə nəzarət etmək.**

# Biz məhsuları sistemli həlletmə üsullarına çeviririk.

think orange.
think connected.




OBO ilk yarandığı gündən bəri dünya elektrik quraşdırıcılığında pioner olub. Bilirsinizmi bu niye belədir? Çünki biz hər zaman bir addım qabağı düşünürük. Öncədən bizə gələ biləcək tələbləri ödəməyə çalışırıq. Çeşidli səciyyəvi xüsusiyyətləri bir-birilə birləşdiririk. Biz məhsulları birləçdirərək onları ağıllı, gələcəyin təminatçısı olan həlledici sistemə çeviririk və bu şəkildə yeni tikinti sisteminin texnlogiya ölçülərinə daxil oluruq. Bizim məhsullarımız Cable Management, Building Technology və Professional Installation sahələrində müasir sənaye, inzibati və infrastuktur layihələrinin qüsursuz həyata keçməsinə zəmin yaradır. Bu “think orange. think connected”dir.

# Cable Management by OBO®



Cable Management by OBO həm yaşayış və inzibati binalarda, həm də sənaye və siin esineb kaks korda və, ühte tuleb kustutada infrastrukturu üçün tamamilə bacarıqlı həlletmə üsulu tətbiq edir. OBO Construct kimi, OBO da Sizin layihə əməkdaşınız olaraq bütün kabel daşıma sistemlərindən tutmuş, uyğun quraşdırıcı sistemlərlə döşəmələrə quraşdırılacaq sistemlərinə, həmçinin şəbəkə quraşdırma sitemilərinə və proqram təminatlarının həllinə qədər Sizin xidmətinizdədir.

OBO BETTERMANN | DAHL KANAL | ACKERMANN CABLE MANAGEMENT

# Building Technology by OBO®




Müasir binalar gündən günə daha çox mürəkkəb şəkil almağa başlayır. Gələcəyə yönəlmiş tikinti texnikasının tələbləri hər gün bir az da müfəssəlliyə doğru meyllənməkdədir. Enerji və məlumat kabelləri tikintinin şah damarıdır. OBO sözü gedən infrastrukturların tikintidə həyata keçirilməsi üçün Sizi avadanlıqlarla təchiz edir. Biz isə Sizi binalarda yaşayan və işləyən insanları mühafizə edən və onların yaşayışını asanlaşdıran sistemlərlə təchiz edirik. Buraya tufana, qasırğaya və yüksək cərəyana qarşı qoruma sistemiləri, bənzərsiz yanğından mühafizə şəbəkəsi və OBO B.U.S. sistemi aiddir. Bulding Technology by OBO – gələcəkdə müvafiq bazarı bununla zənginləşdirəcəklər.

# Professional Installation by OBO®




Professional Installation by OBO, gündəlik istifadə üçün düşünülmüş bütün məhsulları birləşdirir. Buraya praktik və istifadəçinin dostu olan məhsulların tez və asanlıqla quraşdırılması daxildir. Bu, bizim ideal həlletmə düçüncəmizdir – bunu biz “think orange. think connected” olaraq qəbul edirik.

Möhkəm bərkidicilər və yaxşı birləşdiricilər – buna OBO öz geniş məhsul çeşidlərilə təminat verir. Peşəkarlar dünyanın hər yerində bizim sahəmizin liderlərindən olan calaşdırıcı və bərkidici sistemlər kimi quraşdırma materyalları ilə işləyirlər.

Bizim üçün əməkdaşlıq möhkəm məhsullardan, səriştəli bazarlamacılıqdan və əlverişli tövsiyələrdən ibarətdir. Bizim bütöv ticarət şərtlərimizdən yararlanaraq gündəlik işlərinizdə Siz də qazanın.

# Biz öz müştərilərimizi texniki biliklərimizlə bütünləşdiririk.




Service, Engineering, Training – bütün bu vasitələrdən istifadə edərək öz müştərilərimizə ticarətdə daha yaxın olmağa və onlara daha çevik, daha yaxşı imkanlar yaratmağa çalışırıq. Daha yaxın: çünki biz istehsalımızı Sizin tövsiyələrinizi nəzərə alaraq Sizinlə birlikdə həyata keçiririk. Daha çevik: çünki biz öz inkişafımızdan Sizin xeyrinizə istifadə edirik. Daha yaxşı: çünki biz Sizin tələbatınızı öncədən hiss edirik və bu təlabatları öz texniki bacarığımızla birləşdiririk. Və bütün bunların nəticəsi də müştərilərimizə uğurlar qazanmaqda təminat yaradır: texniki baxımdan ən yüksək səviyyədə istehsal edilmiş məhusllar və gündəlik istifadədə səriştəli dəstək.

**think orange.**
**think connected.**



Biz hər zaman bir başa son istifadəçilə əlaqə qururuq. Bu əlaqələri isə bütün qitələri əhatə edən saysız-hesabsız filiallarımız, təmsilçilərimiz və qardaş şirkətlər şəbəkələrimiz yaradır. Bizim xaricdəki yerli təmsilcilərimiz OBO Know-how'u hər yerdə müştərilərin asanlıqla əldə etməsinə imkan yaradır. Təbii ki, biz bütün önəmli sərgilərdə Sizin təmsilcileriniz ola bilərik.

OBO seminar, təlim və layihələştirmə günləri, necə inkişaf etmənin, tövsiyələrin və bələdçiliyin yanı sıra, eyni zamanda, nəzəri biliklərlə və istifadə qaydaları ilə də tanış edir. Əgər siz gündəlik istifadəçilikdə meydana çıxa biləcək suallarınıza cavab almaq istəyirsinizsə, bizim müştəriyə dəstək telefonumuza zəng edə bilərsiniz.

Əgər suallarınız sənayedə, avadanlıqların quraşdırılması və yaxud, böyük layihələrin planlaşdırılması və həyata keçirilməsi haqqındadırsa, OBO'nun səriştəli mütəxəssisləri Sizə hər zaman yardım edə bilər. Siz cizgi-çertyojları nəzərdən keçirməkdən tutmuş, mükəmməl tətbiq və təslimə qədər bütün xidmətləri bir yerdən – bizdən ala bilrəsiniz.

# Biz qlobal fəaliyyəti yerli səriştə ilə bütünləşdiririk.



Hər bir müştəri bizim üçün önəmlidir. Hər bir layihədə bir önəm vardır. Fərqi yoxdur, istər böyük müqavilə, istərsə də yüksək cərəyanı mühafizə təchizatının yenidən quraşdırılması olsun. Layihə istər qapınızın önündə, istərsə də xarici ölkələrdə olsun. Uzunömürlü əməkdaşlıq bizim həm bu günkü, həm də sabahkı fəaliyyətimizin zəminidir. Kürəsəl düşünmək, dünyanın istənilən yerində yanınızda olmaq hər zaman bizim müştərimiz olan sizlərin bir addımığındadır. Bu, dünyanın bütün tikinti sahələrində bizim əbədi şüarımızdır.




Güclü ittifaq: OBO dünyanın hər yerində mürəkkəb tikinti layihələrinin həyata keçirilməsində ən etibarlı əməkdaşdır. Almaniyadan tutmuş, Çin boru tökmə zavoduna və yaxud Misirdəki böyük elektrik stansiyasına qədər. Eyni zamanda, OBO-nun saysız-hesabsız tikinti sahələrində doğru məhsulun doğru yerdə olmasına şərait yaratmasının özü də güclü ittifaq deməkdir. Bunun üçün OBO bir vasitəçi kimi, keyfiyyətli marketingdə ixtisasa uyğun olaraq toptan satış ticarətilə məşğul olanlarla istehsalçı, inşaatçı və sənaye arasında peşəkar əməkdaşlığa üstünlük verir.

Hədər yerə deməyiblər ki : “OBO – burada yalnız peşəkarlar çalışır”.

**Əməkdaşlıq bizim bu günkü fəaliyyətimizin zəminidir. Əməkdaşlıq bizim gələcəyə baxış mövqeyimizidir.**

**OBO BETTERMANN GmbH & Co. KG**
Postfach 1120 · D-58694 Menden · Tel. +49(0)2373/89-0 · Fax +49(0)2373/89-238 · www.obo-bettermann.com

© OBO BETTERMANN Best.-Nr. 9140094 05/2008 AZ

OBO
BETTERMANN